# Əziz anam, ağlama!



**Zöhrə QARAQIZI,**
Bakı şəhəri C.Məmmədyarov adına
155 nömrəli tam orta məktəbin direktoru,
Azərbaycan Yazıçılar Birliyinin üzvü

Vətən eşqi bütün eşqdən əzəldir,
Deməyin ki, vaxtsız bu nə əcəldir?
Vətən üçün şəhid olmaq gözəldir,
Şəhid oldum, əziz anam, ağlama!

Cismim yerdə, ruhum göydə hərlənər,
Düşmənlər də öz - özünə şərlənər.
Onda qəbrim çiçək açar, tərlənər,
Şəhid oldum, əziz anam, ağlama!

Vətən dərdi, qeyrət dərdi ad oldu,
Xalq birləşdi, könüllər də şad oldu
Qarabağım erməniyə yad oldu,
Şəhid oldum, əziz anam, ağlama!

Qarabağdan çiçəkləri üzərsən,
Qəbrim üstə dəstə - dəstə düzərsən,
Toy-düyündə gendə durma, süzərsən,
Şəhid oldum, əziz anam, ağlama!

Yaşayacam, hər könüldə, hər eldə,
Səslənəcəm hər dodaqda, hər dildə,
Yalvarıram, yenə sənə mən bir də,
Şəhid oldum, əziz anam, ağlama!
Şəhid oldum, əziz anam, ağlama!

# Qələbəylə dönəcəyəm yanına

Vətən deyir, yağıdayam, dardayam,
Şaxtadayam, borandayam, qardayam,
Soruşmayın, məndən, bacım, hardayam?
Qələbəylə dönəcəyəm yanına!

Zəfər bayrağını Şuşada taxaq,
Kəlbəcər, Laçında bir tonqal yaxaq.
Dünyanın gözünə qürurla baxaq,
Qələbəylə dönəcəyəm yanına!

Erməni kimdir ki, o mənə deyə,
Xocalıya yenə mən oldum yiyə,
Canımı verərəm bircə tətiyə.
Qələbəylə dönəcəyəm yanına!

Sizdən başqa gözləyən var yolumu,
Azad edib hər dərəmi, kolumu,
Bayrağımla qaldıracam qolumu.
Qələbəylə dönəcəyəm yanına!
Qələbəylə dönəcəyəm yanına!